


# AYLIQ İCMAL

Sentyabr

GESCO SECURITY COMPANY
GESCO

# MÜNDƏRİCAT

## İnsan resursları

04 Vəzifədə yüksəliş

06 Xidmətdə fərqlənənlər

## Əməliyyat fəaliyyəti

08 Ayın fəaliyyəti

09 Statistika

## Ayın xəbərləri

10 Xəbərlər

## Mühafizəyə dair

14 Mühafizə xidmətində dronlardan istifadə




# İNSAN RESURSLARI

**Dəyər verdiklərinizi qoruyuruq!**

# VƏZİFƏDƏ YÜKSƏLİŞ



## XANMƏMMƏDOV CAVİD ÇİNGİZ

**(Növbə rəisi)**

CCTV üzrə baş operator vəzifəsindən növbə rəisi vəzifəsinə keçirilmişdir.



## MÜRSƏLİYEV PƏRVİN ƏBİL

**(Növbə rəisi)**

Mühafizəçi vəzifəsindən növbə rəisi vəzifəsinə keçirilmişdir.



## KƏRİMOV SƏDRƏDDİN BAYRAMƏLİ

**(Növbə rəisi)**

Mühafizəçi vəzifəsindən növbə rəisi vəzifəsinə keçirilmişdir.



## XIDIROV VÜSAL ƏTRAF

**(Növbə rəisinin müavini)**

Mühafizəçi vəzifəsindən növbə rəisinin müavini vəzifəsinə keçirilmişdir.

# VƏZİFƏDƏ YÜKSƏLİŞ



**ŞAHBAZLI ÜZEYİR RAFƏT**
**(Növbə rəisinin müavini)**

Mühafizəçi vəzifəsindən növbə rəisinin müavini vəzifəsinə keçirilmişdir.



**HƏŞİMOV KƏNAN YUSİF**
**(Növbə rəisinin müavini)**

Mühafizəçi vəzifəsindən növbə rəisinin müavini vəzifəsinə keçirilmişdir.



**NURİYEV ANAR FƏRHAD**
**(Baş operator)**

CCTV operatoru vəzifəsindən baş operator vəzifəsinə keçirilmişdir.

# XİDMƏTDƏ FƏRQLƏNƏNLƏR

Aşağıda adları qeyd olunan əməkdaşlarımız sentyabr ayı ərzində əmək fəaliyyətlərini yüksək peşəkarlıqla yerinə yetirdikləri, həmçinin xidmət zamanı ayıq-sayıqlıq nümayiş etdirdikləri üçün mükafatlandırılıblar.


İsmət Kiçibəyov


Vüqar Quliyev


Əli Həsənov


Vüqar Qafarov


Tuncay Mikayılov

# ƏMƏLİYYAT FƏALİYYƏTİ





## "Formula 1 Azərbaycan qran prisi"ndə əməkdaşlarımız

# AYIN FƏALİYYƏTİ

13-15 sentyabr tarixlərində Bakıda keçirilən "Formula 1" yarışlarının mühafizəsi prosesində əməkdaşlarımız da iştirak etdi. Beynəlxalq səviyyəli yarışa bəy və xanım əməkdaşlarımızdan ibarət böyük bir komanda cəlb olunmuşdu. Yarışın "padok" ərazisinə nəzarət edən əməkdaşlarımız bu ərazidə giriş-çıxışı tənzimləyir, eyni zamanda insanların düzgün yönləndirilməsini təmin edirdi.

Böyük məsuliyyət və diqqət tələb edən, ölkə üçün böyük əhəmiyyət daşıyan bu tədbirin mühafizəsi əməkdaşlarımız tərəfindən lazımi səviyyədə başa çatdırıldı.

Qeyd edək ki,  "GESCO" artıq ikinci ildir ki, ""Formula 1 Azərbaycan qran prisi"ndə mühafizə xidməti göstərir.

Mühafizəçilər tərəfindən sentyabr ayı ərzində qarşısı alınmış hadisələrin

# STATİSTİKASI








# XƏBƏRLƏR




# Azərlotereya tədbirinin mühafizəsində

Azərlotereya tərəfindən 5-7 sentyabr tarixlərində keçirilən tədbirdə əməkdaşlarımız mühafizə xidməti dəstəyi göstərdi. 3 gün davam edən tədbirdə əməkdaşlarımız konsert ərazisində qurulan stendə nəzarət edirdi.




## Will Smith konserti

"Formula 1" yarışları çərçivəsində dünyaca məşhur aktyor və müğənni Will Smith Bakıya dəvət olunmuşdu. 11 sentyabrda keçirilən və böyük tamaşaçı izdihamı ilə müşayiət olunan konsertin mühafizəsində iştirak etdik. Turistlərin çoxluq təşkil etdiyi konsertdə əməkdaşlarımız öz vəzifələrini lazımi səviyyədə icra edərək prosesi başa çatdırdılar.



# MÜHAFİZƏYƏ DAİR

# Mühafizə xidmətində dronlardan istifadə

Dronlar, mühafizə xidmətinin təşkili və icrasında bir çox üstünlüklərə malikdir. Onların rolu aşağıdakılardan ibarətdir:

## Havadan nəzarət

Dronlar geniş ərazilərin yüksəklikdən izlənilməsini təmin edərək mühafizə əməkdaşlarına əhəmiyyətli məlumatlar təqdim edir. Bu, mühafizə edilən əraziyə daha effektiv şəkildə nəzarət etməyə kömək edir.

## Daha sürətli reaksiya

Müəyyən bir hadisə baş verdikdə ona daha sürətli şəkildə reaksiya verməyə şərait yaradır. Onlar mühafizəçilərə dərhal görüntü və məlumat ötürə bildiyi üçün əməkdaşların hadisəyə daha tez müdaxilə etməsinə imkan verir.

## Uzaqdan idarəetmə

Dronlar vasitəsilə həm də təhlükəsizliyə dair riskləri azaldaraq uzaqdan işləmək mümkündür. Məsələn, şübhəli fəaliyyətləri izləmək üçün riskli bölgələrə yaxınlaşmadan mühafizə etmək mümkündür.

## GPS sistemləri

Mühafizə xidmətlərinin planlaşdırılması və resursların daha səmərəli istifadə olunması məqsədilə dronlar GPS məlumatları toplaya bilər.

## Hərəkətliliyin izlənməsi

Kütləvi tədbirlər zamanı insanların hərəkətlərini izləmək üçün dronlardan istifadə oluna bilər. Bu, potensial riskləri əvvəlcədən görmək və müvafiq tədbirlərlə qarşısını almaq imkanı yaradır.

### Ağıllı analiz

Dron topladığı məlumatları ağıllı sistemlərlə analiz edərək mühafizə xidmətinə daha dəqiq proqnozlaşdırma və qərarvermə imkanı təqdim edir.

### Xidmət xərclərini azaltma

Dronlardan istifadə havadan nəzarət vasitəsilə insan faktorunu minimuma endirərək mühafizə xidmətlərinin xərclərini azalda bilir.

Nəticə etibarilə, mühafizə xidmətində dronlardan istifadə təhlükəsizlik səviyyəsini artırır, riskləri azaldır və əməliyyatları daha səmərəli bir şəkildə həyata keçirməkdə mühüm rol oynayır.

# BİZİMLƏ ƏLAQƏ

www.gesco.az

office@gesco.az

+994 12 310 05 77
+994 55 207 00 40

Bakı, Ziya Bünyadov prospekti, 1965-ci məhəllə, Çinar Park Biznes Mərkəzi